*UOT 159.9*

***Səbinə Hikmət qızı Əlizadə***
*Bakı Dövlət Universitetinin müəllimi,*
*psixologiya üzrə fəlsəfə doktoru*
*E-mail: sabina.az@gmail.com*
Orchid: https://orchid.org/0000-0002-0717-7197

***Zakir Əlisahib oğlu Əliyev***
*Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin müəllimi*
*https://doi.org/10.69682/arti.2026.93(3).233-236*

# MUĞAM İFASI ZAMANI XANƏNDƏNİN TAMAŞAÇIYA SOSİAL-PSİXOLOJİ TƏSİRİ

***Sabina Hikmat Alizade***
*teacher at Baku State University,*
*PhD in Psychology*

***Zakir Alisahib Aliyev***
*teacher at Azerbaijan University Culture and Art*

# THE SOCIO-PSYCHOLOGICAL IMPACT OF THE SINGER ON THE AUIDIENCE DURING MUGHAM PERFORMANCE

***Сабина Хикмет гызы Ализаде***
*преподаватель Бакинского государственного университета,*
*доктор философии по психологии*

***Закир Алисахиб оглу Алиев***
*преподаватель Азербайджанского государственного университета культуры и искусств*

# СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКОЕ ВОСДЕЙСТВИЕ ПЕВЦА НА ПУБЛИКУ ВО ВРЕМЯ ИСПОЛНЕНИЯ МУГАМА

**Xülasə.** Məqalədə Azərbaycan muğamının sosial-psixoloji xüsusiyyətləri xalqın duyğularını, düşüncə tərzini və sosial həyatını əks etdirən çox dərin fenomen kimi dəyərləndirilir. Tədqiqat göstərir ki, muğam insan psixikasında katarsis yaradan, emosional tənzimləməni təmin edən və kollektiv empatiyanı gücləndirən kompleks musiqi sistemidir. Muğamın improvizasiya xarakteri və mikrotonal quruluşu dinləyicinin həm şüurlu, həm də şüuraltı səviyyəsinə təsir göstərir. Məhz bu baxımdan xanəndə muğamı ifa edərkən öz yaşantılarını tamaşaçıya ötürür. Bu zaman onlar arasında xüsusi rabitə yaranır.
***Açar sözlər:*** *muğam, musiqi psixologiyası, emosional tənzimləmə, katarsis, improvizasiya, musiqi terapiyası, tamaşaçı, xanəndə*

**Abstract**. The article evaluates the socio-psychological characteristics of Azerbaijani mugham as a very deep phenomenon reflecting the emotions, way of thinking and social life of the people. The study shows that mugham is a complex musical system that creates catharsis in the human psyche, provides emotional regulation and strengthens collective empathy. The improvisational nature and microtonal structure of mugham affect both the conscious and subconscious levels of the listener. It is from this perspective that the singer transmits his experiences to the audience while performing mugham. At this time, a special connection is created between them.
***Keywords:*** *mugham, music psychology, emotional regulation, catharsis, improvisation, music therapy, audience, singer*

**Аннотация.** В статье оцениваются социально-психологические характеристики азербайджанского мугама как очень глубокого феномена, отражающего эмоции, образ мышления и социальную жизнь народа. Исследование показывает, что мугам — это сложная музыкальная система, которая вызывает катарсис в человеческой психике, обеспечивает эмоциональную регуляцию и укрепляет коллективную эмпатию. Импровизационный характер и микротональная структура мугама влияют как на сознательный, так и на подсознательный уровни слушателя. Именно с этой точки зрения певец передает свой опыт аудитории во время исполнения мугама. В это время между ними устанавливается особая связь.

***Ключевые слова:*** *мугам, психология музыки, эмоциональная регуляция, катарсис, импровизация, музыкотерапия, аудитория, певец*

Xalq musiqisinin əsasını təşkil edən Azərbaycan muğamı Şərq musiqi mədəniyyətində xüsusi yer tutur və çoxəsrlik tarixi ənənələrə söykənir. Xalqın yaşadığı hiss və həyacanlar emosional – psixoloji səviyyədə muğamın məzmununda öz əksini tapır. Buna görə də muğam bütün dövrlərdə xalqın mənəvi-psixoloji dayağına çevrilmişdir. O musiqi mədəniyyətinin zirvəsi olduğu üçün, özünün ecazkar psixoloji təsir dairəsinə malikdir. Buna görə də təkcə ölkəmizdə deyil, dünyanın müxtəlif xalqları tərəfindən sevilir. Onun sevilməsinin səbəblərindən biri də oxunduğu zaman xanəndə ilə dinləyici arasında qarşılıqlı təmasın yaranmasıdır. Muğam oxunanda sanki dinləyicini ovsunlayır, onu öz təsir dairəsinə salır, ona yaşadığı hiss və həyacanları yenidən yaşamağa sövq edir. Bu qüdrətinə görə, muğam milli səviyyədən daha yülsəklərə qalxaraq, ümumbəşəri dəyərə çevrilə bilmişdir. Təsadüfi deyil ki, muğam UNESCO tərəfindən ümumbəşəri dəyər kimi qəbul edilmişdir. Z .Əli yevin qənaətincə, "onun qeyri-maddi mədəni irs kimi UNESCO tərəfindən tanınması muğamın yalnız milli deyil, ümumbəşəri əhəmiyyətini də təsdiqləmiş olur. Azərbaycanın qədim musiqi irsi olan muğam sənətinin müasir dövrdə artan nüfuzu və geniş şəkildə təbliğində Heydər Əliyev fondunun prezidenti, YUNESKO və İSESKO - nun Xoşməramlı səfiri Mehriban Əliyevanın xidmətləri danılmazdır" (1, s.4).

Muğamın ecazkarlığı onun ifası zamanı xanəndə ilə tamaşaçı arasında sosial-psixoloji rabitənin yaranmasındadır. Muğamı təkcə musiqi kimi dəyərləndirmək səhv olardı, o çox aspektlidir. Onun həm tarixi, həm mədəni, həm mənəvi, həm siyasi kökləri vardır. Bu köklər onun insanlara təsir gücünü artırır. Muğam həmçinin sosial-psixoloji fenomendir. Xanəndə muğamı oxuyanda kütləyə onun həm tarixi, həm mədəni, həm mənəvi, həm siyasi köklərini açıb göstərə bilir. Onun bu qeyri-adi təsir qüvvəsi insanın hiss və həyəcanlarını yenidən yaşamağa, eyni zamanda düşünməyə sövq edir. Bu onu sübut edir ki, muğam yalnız musiqi forması deyil, həm də insan psixikasında katarsis, emosional tənzimləmə və kollektiv empatiya yaradan mürəkkəb emosional-psixoloji xarakter daşıyan bir sistemdir.

Muğamın əsas xüsusiyyətlərinə bunlar aid dir: lad sistemi, improvizasiya, kütləyə xitab, poetik mətnə uyğun olaraq hisslərin yaşanması və dinləyiciyə müvafiq yaşantıları ötürmək, empatiya yaratmaq – onu sosial- psixoloji baxımdan araşdırmaq üçün zəngin edir. Sadaladığımız bütün bu faktlar xanəndə-tamaşaçı münasibətlərində özünəməxsus yer alır. Bu konteksdə, xanəndənin sosial-psixoloji təsir gücünü araşdırmaq nəzəri problem kimi aktuallaşır.

Muğam bu gün cəmiyyətin aynası kimi mənalandırılır, buna səbəb Azərbaycan xalqının illərin süzgəcində süzülüb gələn həyat tərzini, sosial yaşantılarını, sevincini, kədərini, onun dəyərlər sistemini özündə ehtiva etməsidir. Bu mu ğamın milli kimlik və birlik hisslərini gücləndirməsində özünü ehtiva edir. O, insanları ortaq mə dəniyyətdə birləşdirir. Təsadüfi deyil ki, muğam kimi əfsanəvi musiqiyə sahib olmaq xalqın qürur mənbəyinə çevrilmişdir. Xalq onu misilsiz mənəvi sərvəti hesab edir və qoruyur. Onun bu günə qədər gəlib çatmasında məhz xalqın onu milli dəyər kimi dəyərləndirməsini və bu sərvəti yüksək qiymətləndirməsini səbəb kimi göstərə bilərik.

Muğam bu gün dövlətimiz tərəfindən xüsusi diqqətdə saxlanılır. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın xüsusi təşəbbüsü ilə Bakıda Beynəlxalq Muğam Mərkəzi tikilib, Beynəlxalq muğam festivalları keçirilir. Görülən tədbirlər nəticəsində xalqın mədəni irsimizə sahib çıxmaq hissi daha da artır. Müxtəlif xarakterli musiqi janrlarının yaranması nəticəsində gənclər tərəfindən muğam janrına maraq itməyə başlayanda, qeyd olunan tədbirlər nəticəsində muğam öz aktuallığını artıra

bilmiş və bunun nəticəsi olaraq, yeni nəsil gənc xanəndələr yaranmışdır.

Muğam hər zaman ictimai təsir qüvvəsi ilə seçilib, ətrafına çoxsaylı tamaşaçılar toplaya bilib. İnsanlar ən xoş günlərində – toyda, məclislərdə, bayramlarda, el şənliklərində muğamın ifa olunması tədbirdə əlavə şənlik yaradıb. Muğam həm insanlar arasında, həm də xanəndə-tamaşaçı arasında sosial münasibətlərin yaranması və möhkəmləndirməsilə seçilib.

Muğam mərhələli emosional inkişaf modelinə malikdir. İlk əvvəl, dinləyərkən başlanğıcda sakit və sabit emosional fon yaranır, sonrakı mərhələdə isə hiss - həyəcan artır və kuliminasiya nöqtəsində emosional partlayış baş verir. Bu mərhələ katarsis effekti yaranır. Bütün bu yaşantılar xanəndədən dinləyiciyə ötürülür. Katarsis tamaşaçıda daxili emosional gərginliyinin azalması və psixoloji rahatlama ilə nəticələnir. Musiqi psixologiyası üzrə aparılan araşdırmalar göstərir ki, emosional intensivlik və dinamik dəyişkənlik dinləyicidə dopamin ifrazını artıraraq müsbət emosional vəziyyət yaradır. Emosional qavrayış dinləyicinin musiqidə emosiyaları (məsələn, "kədərli bir ifadə") özü hiss etmədən qavradığı və ya tanıdığı bütün halları özündə ehtiva edir. (4, s.10)

Bu təsir qüvvəsini şərti olaraq, mərhələlərə bölərək, onu aşağıdakı kimi izah edə bilərik:

- sakit başlanğıc zamanı daxili gərginlik mövcud olur;
- yüksəlmə emosional partlayışın yaranmasını şərtləndirir;
- kulminasiya katarsisə - emosional boşalmaya doğru istiqamətləndirir;
- sakitləşmə isə psixoloji balans yaradır.

Muğamın mikrotonal quruluşu, yəni yarımtonda kiçik intervallar dinləyicinin rasional analizindən daha çox intuitiv qavrayışına təsir edir. Uzun vokal improvizasiyalar və təkrarlanan melodik strukturlar meditasiyaya bənzər vəziyyət formalaşdıra bilir. Xanəndələrin ifasını analiz etdikdə görə bilərik ki, sadaladığımız halətləri onların özləri də yaşayır və onu dinləyiciyə də yaşatmış olurlar. Xüsusilə ifalarında emosional intensivlik və improvizasiya edən müğənnilər dinləyicidə dərin psixoloji rezonans yaratdığını müşahidə edə bilərik. Belə müğənnilərin ifaları zamanı da onun musiqini yaşadığını açıq-aşkar görmək olur. Bu vəziyyət şüuraltı emosional qatların aktivləşməsinə təkan verir:

- Mikrotonal keçidlər (yarımtondan da kiçik səslər) şüuraltı təsirə malikdir.
- Uzun vokal improvizasiyalar insanda dərin düşüncə halı formalaşdıra bilir.
- Təkrarlanan motivlər meditasiyaya yaxın vəziyyət yaradır.

Muğam dinləyicidən aktiv dinləmə tələb edir. İmprovizasiya elementləri dinləyicinin diqqətini daimi olaraq özündə saxlamağa malik olur. Bütün xanəndələr eyni cür ifa etsələr, tamaşaçıda xanəndənin ifasına maraq itər. Bunun üçün də diqqət yetirsək görə bilərik ki, xanəndələrin hər biri özünəməxsus improvizələrlə yadda qalmağa çalışırlar ki, tamaşaçı aktiv olaraq onları dinləyib təsirə düşə bilsinlər.

Bu zaman xanəndə yaşadığı həyat təcrübəsini sanki ifasına yansıdır: daxili emosional təcrübəsi musiqiyə sirayət edir; yaşadığı anlıq psixoloji vəziyyətini ifadə edir; öz fərdi "mən"-ini təqdim edir.

Müxtəlif xanəndələr tərəfindən ifa olunan eyni muğamlar məhz yuxarıda sadaladığımız faktorlara görə fərqlənir. Tamaşaçı öz ruhuna uyğun olan xanəndənin ifasını bəyənir. Hər bir ifaçı öz yaşantısı və sosial təcrübəsinə uyğun formada qavrayır və təqdim edir.

Burada digər əsas məqam poetik uyğunluqdur, yəni sözlərə uyğun ifa etməli və yaşantını yansıtmalıdılar. Belə ifasi ilə xanəndənin yaratdığı sosial ünsiyyət emosional və sosial intellekti aktivləşdirir. Bu zaman dinləyici: melodiyanın inkişafını izləyir; emosional dəyişmələri hiss edir; improvizasiyanı təxmin etməyə çalışır.

Muğamın sakit hissələri relaksasiya effekti yaradır, kulminasiya mərhələsi isə emosional katarsisi təmin edir. Bu baxımdan muğam musiqi terapiyasında potensial vasitə kimi qiymətləndirilə bilər. Məhz bu yaşantılar bu musiqi janrını daima tələbatlı edir, ətrafına insanları cəmləyir.

Muğam konsertləri zamanı ifaçı və auditoriya arasında emosional rezonans yarandığını müşahidə edə bilərik. Bu sosial psixologiyada empatiya və kollektiv identifikasiya mexanizmləri ilə izah olunur. Bu yolla xanəndə ifası zamanı yaşadığı psixoloji halətləri tamaşaçılara da ötürə bilir, onların da empatiya hissi yaşamasına səbəkar olur. Muğam xalqın tarixi yaddaşını və kollektiv emosional təcrübəsini ifadə edir.

Muğam insan psixikasına ən dərindən təsir edən musiqi sistemlərindən biridir. Onun psi-

xologiyasını emosional, idrak, şüuraltı və terapevtik aspektlərdən təhlil etmək olar.

Muğamın müalicəvi təsiri barədə tədqiqatlar göstərir ki, o, stressi azaldır, ürək ritmini stabilləşdirir, emosional gərginliyi yumşaldır. Muğamın yavaş temp mərhələləri parasimpatik sinir sistemini aktivləşdirir və sakitləşdirici effekt yaradır.

Muğam tək fərdi yox, kollektiv emosiyanı da ifadə edir: xalqın tarixi ağrılarını; qürurunu; yaddaşını psixoloji kod kimi daşıyır.

Azərbaycan muğamı yalnız musiqi forması deyil, simvolik-fəlsəfi sistemdir. Onu aşağıdakı istiqamətlərdə təhlil etmək mümkündür:

1. Struktur-fəlsəfi təhlil. Muğamın quruluşu insanın həyat fəlsəfəsinə bənzəyir. başlanğıc nöqtə; inkişaf mərhələsi; kulminasiya; eniş və sakitləşmə.

Bu modeli təhlil etsək, eynilə insanın yaş dövrlərini bizə xatırlatdığını görə bilərik.

Doğuluş (çağalıq) → Yetkinlik (yeniyetməlik-gənclik) → Zirvə (yetkinlik) → Sakitləşmə (qocalıq)

Burada musiqi zamanın axışını və varlığın dəyişməsini simvolizə edir.

2. Ontoloji (varlıq) təhlil. Muğam insanın daxili "mən"i ilə xarici aləm arasında körpü rolu oynayır. Səs burada sadəcə musiqi ahəngi deyil – ruhun təcəssümüdür. Hər bir xanəndənin ifasını unikallaşdıran improvizələridir. Muğamın improvizəsi isə göstərir ki: varlıq sabit deyil; insan daim dəyişir; hər ifa unikaldır.

Bu baxımdan muğam fəlsəfədəki ekzistensial yanaşmaya yaxınlaşır – insanın anlıq yaşantısı-mövcudluğu əsas kimi çıxış edir.

3. İrfani (mistik) təhlil. Muğamın melodik yüksəlişi sufi düşüncəsindəki "mərtəbə-mərtəbə yüksəliş" ideyasını xatırladır. Ruh cismani səviyyədən başlayır, hisslərdən keçir, mənəvi zirvəyə çatır. Müğənninin emosional ifasında xüsusilə biz bu mistik yüksəlişi açıq-aşkar hiss edirik. Emosional ifa adi oxuma deyil, sanki zikr və ya mənəvi təcrübədir.

4. Psixoloji təhlil. Muğam emosional spektri geniş olan janrdır: Segahda eşq və yanğı, rastda əzəmət və sabitlik, şurda lirizm və incə hisslər sezilir. Muğamdakı bu kontrastlıq onu göstərir ki, muğam insan psixikasının çoxqatlı modelidir. O, daxili gərginlikdən azad edir və katarsis yaradır.

5. Milli-mədəni təhlil. Muğam bizim tarixi yaddaşımızdır, kollektiv şüurumuzun mücəssiməsidir, milli identikliyin simvoludur. Onun qorunması və inkişafı Azərbaycan xalqının mədəniyyətinin davamlılığını təmin edir. Biz dünyada gedən qloballaşma proseslərinə qoşula bilirik, lakin muğam bizə milli kimliyimizi, tariximizi, bizə aid olanları unutmamağı, öz dəyərlərimizi qorumağı təbliğ edir.

**Problemin aktuallığı.** Muğam Azərbaycan xalqının mənəvi sərvətidir. O xalqın tarixini, mədəniyyətini, hiss və həyacanlarını özündə əks etdirir. Bu gün xalqımızı tanıdan musiqi kimi dünyanı fəth edir. Hazırda ölkəmizin musiqi dünyasında muğamın özünəməxsus çəkisi vardır. Muğam həmçinin sosial-psixoloji fenomendir. Bu konteksdə onun öyrənilməsi gənc nəslin sosiallaşması, onlarda vətənpərvərtlik hisslərinin formalaşması, xalqımızın tarixi ilə qürur duyması baxımından mühüm əhəmiyyət kəsb edir.

**Problemin elmi yeniliyi.** Muğam müxtəlif rakurslardan tədqiq edilmişdir. Psixoloqlar da bu məsələyə xüsusən son dövrlərdə daha çox müraciət edirlər. Muğamın sosial-psixoloji baxımdan təhlili mühüm əhəmiyyət kəsb edir. Məqalədə ifaçı və dinləyici arasında sosial-psixoloji bağlılığın emosional qatlarına diqqət yetirilir, bu prosesin mərhələləri açıqlanır və onun fəlsəfi, ontoloji, irfani, psixoloji və milli mədəni kontekstdən təhlili verilir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə muğam xalqın milli-mənəvi sərvəti kimi dəyərləndirilir. Bu milli-mənəvi dəyərin qorunması və daha da yüksək səviyyədə dəyərləndirilməsi üçün onun muğam ifaçısı ilə dinləyici arasındakı emosional qatları açıqlanır. Muğamın bu konteksdən dəyərləndirilməsi onun xanındılərə dinləyicilərə emosional təsirini artırmağın yollarını göstərir.

**Ədəbiyyat:**

1. Bünyadzadə K. Muğam fəlsəfəsi. Bakı, Elm, 2018.
2. Əliyev Z. Azərbaycan ənənəvi musiqisində zərbi-muğamlar. Bakı, 2016.
3. Əliverdibəyov A. Rəsmli musiqi tarixi, Bakı, Şərq-Qərb, 2001.
4. Juslin, P. N., & Sloboda, J. A. Handbook of Music and Emotion. Oxford University Press, 2010.
5. Levitin, D. J. This Is Your Brain on Music. Dutton, 2006.